“Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi qaydaları haqqında Təlimat”ın təsdiq edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 16 iyul 2003-cü il tarixli 15/87 saylı Qərarı ilə təsdiq edilmiş “Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi qaydaları haqqında Təlimat”ın struktur elementlərinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 30-cu maddəsinə uyğunlaşdırılması, həmin Təlimatla tənzimlənən münasibətlərin daha da təkmil nizama salınması üçün eyni adlı normativ xarakterli aktın təsdiq edilməsi yolu ilə qüvvədən düşmüş hesab edilməlidir.

Bundan başqa, Mərkəzi Seçki Komissiyası tərəfindən öz səlahiyyətləri daxilində həmin Təlimatın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsi təmin olunmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a a l ı r :**

1. “Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi qaydaları haqqında Təlimat” təsdiq edilsin (əlavə olunur).

2. Bu Təlimat qüvvəyə mindiyi gündən Mərkəzi Seçki Komissiyasının 16 iyul 2003-cü il tarixli 15/87 saylı Qərarı ilə təsdiq edilmiş “Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi qaydaları haqqında Təlimat” qüvvədən düşmüş hesab edilsin.

3. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində təsdiq edilmiş Təlimatın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib Mikayıl Rəhimov